# Şəhid polkovnik

**Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi xarakter formalaşdırır, onu qələbəyə ruhlandırır. Bunun sonu isə bəzən vətən, torpaq uğrunda şəhid olmaqla nəticələnir ki, bu da böyük şərəfdir.**

Aprel ayının əvvəlində Ermənistan silahlı birləşmələrinin təxribatına əks-həmlə əməliyyatı ilə cavab verən Azərbaycan Ordusu düşmənə hələ uzun müddət unuda bilməyəcəyi sarsıdıcı zərbə vurdu və dördgünlük müharibə az da olsa, xalqımıza qələbə sevinci yaşatdı. Təbii ki, hünər meydanı sayılan döyüşdə itkilərin olması labüddür. Düşmənin 300-dən çox canlı qüvvəsini, zirehli-hərbi texnikasını məhv edən Azərbaycanın igid oğulları Vətən uğrunda canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər. Bu, hər kəsə nəsib olmayan müqəddəs bir sonluqdur. Ömrünü şəhidlik zirvəsində tamamlayanlardan biri də polkovnik Raquf Orucov idi.

### *Hamı kimi doğulsa da...*

Raquf İbrahim oğlu Orucov Ağdamın Cinli kəndində dünyaya göz açmışdı. Kənd orta məktəbini bitirdikdən sonra əsgəri xidmətdə olmuşdu. Özbəkistan Respublikasında hərbi xidmətdə olan Raquf bir müddət sonra geriyə - evlərinə qayıdır. Hərbi hissəni özbaşına tərk edərək vətənə qayıdan gənci çoxları qınayır. Yaxınları onun başına bir şey gələcəyindən qorxurlar.

- 1990-cı ilin yayında bir də gördük ki. Raquf həyətimizdədir - qardaşı Zabil bildirir. Bilmirdik ki, sevinək, yoxsa kədərlənək. Sovet qanunları hamıya yaxşı bəlli idi. Atam narahatlığını bildirəndə gülərək, dedi: - Bəsdir kənarda xidmət etdik. Bundan sonra vətənimizə qulluq edəcəyik.

Bu, həmin zamanlar idi ki, ermənilər Azərbaycan kəndlərində qətllər törədir, soydaşlarımızın başına olmazın faciələr gətirirdilər. Əlbəttə, belə gündə vətənin qeyrətli oğulları biganə qala bilməzdilər. Bir neçə gün evdə istirahət etdikdən sonra atası onun hərbi paltarlarını geyindiyini görür. "Hara belə, bala?" - deyə soruşanda, Raquf deyir: "Mən ermənilərlə döyüşə gedirəm." Atasının heç olmasa bir ay sonra gedərsən - sözünə, torpağın vaxtı olmaz, getsəm yaxşıdır, cavabını verir.

Özünümüdafiə qüvvələrinə qoşulan Raquf az müddətdə hərbi qayda-qanuna riayət etdiyini döyüşlərdə sübuta yetirir. Ayağından yaralanır, lakin müalicə olunduqdan sonra yenidən döyüşlərə qayıdır.

- Dəfələrlə ölümlə üzləşsə də, geri çəkilmədi, qardaşım - Zabil vurğulayır. Həmin günlər onunla görüşəndə deyərdi ki, biz bu müharibədən kənarda qala bilmərik. Sabah özümüzdən sonra gələnlərə nəsə deməliyik axı?!. Ya deyəcəyik ki, döyüşüb düşməni əzmişik, ya da qaçıb hardasa gizlənmişik!.

### *Anama deyərsiz ki...*

Qarabağ uğrunda döyüşlər getdikcə qızışırdı. Sovetlər dövründə hərbi xidmət keçən Raquf yoldaşlarından seçilirdi. Komandir vəzifəsini daşımağı bacaran bu gənc hərbçi döyüşçülərinin etimadını qazanmışdı. Hansı döyüşə girirdisə, həmin savaşı qələbəylə başa vururdu.

Döyüş yoldaşlarından biri danışırdı: "Məlumat aldıq ki, yaxın kəndlərin birinə ermənilər soxulub. Tapşırıq alan kimi yoldaşlarını başına yığan Raquf xəritəsini çıxartdı. Xüsusi xətlərlə necə hərəkət edəcəyimizi başa saldı. Kimsə: bəyəm belə tapşırıqsız keçməz?" sözünə, o bir komandirsayağı cavab verdi: "Biz düşmən üstünə gedirik. Gərək hər şeyi ölçüb-biçək ki, sağ-salamat geriyə qayıda biləк".

1993-cü ildə Qarabağ cəbhəsində vəziyyət daha da kəskinləşmişdi. Xarici dövlətlərdən silah alan ermənilər kəndləri dağıdırdı. Belə bir gündə Orucovlar üçün daha bir faciə baş verir. Anaları Raya iyulun 12-də həlak olur.

- Biz onun öldüyünü qardaşıma deyə bilmirdik, - Zabil sözünə davam edir: - Axşam bir də gördük Raquf yanımızdadı. Hamını gözüyaşlı görəndə, ətrafı süzüb baxışları ilə nə olduğunu soruşdu. Anamın dünyasını dəyişməsi hamımızdan daha çox onu yandırırdı. Mən heç vaxt qardaşımı ağlayan görməmişdim. Onun hönkürtüsü indi də qulaqlarımda səslənməkdədir.

Artıq yaxınları, qohum-əqrəbası yaxşı bilirdi ki, anasının ölümündən sonra Raquf geri çəkilən deyil. Elə belə də oldu. Bir neçə dəfə yaralansa da, arxaya çəkilmədi. Yaraları sağalan kimi yenidən döyüşlərə qayıtdı.

### *O, zabit adını döyüşlərdə qazanmışdı*

Müharibə səngiyəndə Raquf Orucov Cəmşid Naxçıvanski adına Hərbi Məktəbə daxil olur. Beş illik məktəbi iki ilə bitirir. Döyüş taktikasını, kəşfiyyat xidmətini Qarabağ savaşında keçən Raquf hərbi məktəbi vaxtından tez bitirir və leytenant rütbəsi alır. Murov və Ağstafada xidmət keçən Raquf 2003-2005-ci illərdə Bakı Hərbi Akademiyasında təhsilini davam etdirir.

-Yenicə ailə qurmuşduq - həyat yoldaşı Sevinc xanım bildirir. Dəfələrlə deyirdim ki, bəsdi döyüşdüyün, qoy başqaları da vətənə borcunu ödəsin. Mənə sarı sakitcə baxardı, heç nə deməzdi. Bir dəfə də etiraz edəndə mənə bildirdi ki, anası şəhid olan oğul evində necə sakitcə otura bilər. Gecələr də, gündüzlər də gözlərimdən anam çəkilmir. Mən bu gün geri çəkilsəm, şəhidlərə xəyanət etmiş olaram. Onu da bildirək ki, dayısı və əmisi də döyüşərək şəhid olmuşdu Raqufun. Həmişə onlardan söz açanda özünü günahkar sayardı. Biz dura-dura analarımız qırılırsa, biz nə oğuluq ki, deyərdi.



Murovda kəşfiyyat taqımına komandirlik edən Raquf bacarıqlı döyüşçü olduğunu sübut edir. 1998-ci ilin 24 iyulunda Azərbaycan Prezidentinin fərmanı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunur. Eyni zamanda, ona vaxtından əvvəl kapitan rütbəsi verilir. 2001-ci ildə qüsursuz xidmət göstərdiyinə görə Raquf medalla təltif olunur.

- İlk dəfə ona medal verəndə sevincinin həddi-hüdudu yox idi - Zabil bildirir. Atama fəxrlə deyərdi ki, mənim medalımın vəsiqəsində ulu öndər Heydər Əliyevin imzası var. Bu həm də məsuliyyətimi artırır. Bizi düşmənlə mübarizədə fədakar olmağa çağırır.

Xidmətdə fərqləndiyinə görə onu Ağstafada yerləşən "N" saylı hərbi hissəyə yüksək hərbi vəzifəyə göndərirlər. 2012-ci ildə onu quru qoşunlarının ön cəbhədə yerləşən hərbi hissələrindən birinə qərargah rəisi təyin edirlər. Zabil deyir: "Əsgərlərini qiymətləndirən komandir idi. Onun şəkillərinə baxın. Ailə şəkillərini barmaqla saymaq olar. Əsgərlərlə çəkdirdiyi şəkillər isə saysız-hesabsızdır. Həmişə deyərdi ki, əgər məndən bircə nəfər əsgər inciyərsə, özümü lazımsız komandir hesab edərəm. Çünki komandirin düşündüyünü onlar döyüşdə həyata keçirirlər. Qalibiyyət bayrağını daşıyan əsgərlərdir".

2012-ci ilin yayında onu Ağdamda yerləşən hərbi hissəyə komandir təyin edirlər. Doğulub boya-başa çatdığı Ağdamın hər daşına bələd olan Raquf komandanlığın bütün tapşırıqlarına yüksək qaydada hazırlıqlı olduğunu göstərir. Ona xidmətdə göstərdiyi fədakarlıq və yüksək hərbi bacarığına görə yenə də vaxtından əvvəl polkovnik rütbəsi verilir.

- Raqufa on günlük icazə vermişdilər - Sevinc xanım söhbətinə davam edir. Uşaqları da götürüb atasının yanına getdi. (Şəhid polkovnikin iki oğlu var, Aqşin və Nihad adlarında. Aqşinin 16, Nihadın isə 10 yaşı var). Atası ikinci qrup əlildir. Uşaqlar geri qayıdanda dedilər ki, atam babama anasının qanını alacağına söz verdi. Anası tez-tez onun yuxusuna girərdi. Deyərdi ki, arvad elə hey saçlarımı tumarlayır və ağlayır. Biz Qarabağda şəhid olan anaların, ataların, qardaşların, bacıların intiqamını almalıyıq. Bax, o məqam bizim üçün, torpağı düşmən tapdağında olanlar üçün şərəf günü olacaqdır.

### *Şəhidliyə gedən yol*

- Qardaşım həyatda heç nədən qorxmazdı - Zabil əlavə edir: "Şəhidliyi özünə şərəf işi hesab edirdi. Bir neçə dəfə əsgərlərlə söhbəti zamanı mən də orda olmuşam. Ata öz oğluynan necə danışırdısa, o da onlarla elə söhbət edirdi. Bəzən mənə elə gəlir ki, Raquf özünün şəhid olacağını öncədən görürdü. Həmişə söhbətimizdə Allahın şəhidlərə verdiyi yüksək zirvələrdən danışar, bunu torpaq uğrunda döyüşən hər kəsə arzulardı. Öncə özümdən başlayıram, deyərdi".

2014-cü ildə hərbi qaydalara yiyələndiyini qeyd edən komandanlıq onu XTQ-nin xidmətinə dəvət edir. Dəfələrlə özünün layiqli və soyuqqanlı kəşfiyyatçı olduğunu Raquf keçirilən əməliyyatlarda sübut edir. 26 illik döyüş təcrübəsi keçən Raquf son tapşırığa da gedəndə...

- Həmin gün qəribə yuxu gördüm, - deyə Sevinc Orucova xatırladır. Mən onun əsgərləri ilə birlikdə işığa doğru getdiyini gördüm. Nə qədər çağırsam da, geri qayıtmadı. Bircə əli ilə hələlik işarəsini verdi. Böyük oğlumuz Aqşinə səssizcə vidalaşmağı öyrədərdi. Bax mənlə beləcə vidalaşdı.

Aprelin 4-də ermənilərin növbəti təxribatının qarşısını alarkən Orucov Raquf İbrahim oğlu qəhrəmancasına həlak oldu. Sumqayıt ictimaiyyəti bacarıqlı döyüşçü, istedadlı komandir, gözəl insan olan Raqufun dəfnində bir nəfər kimi iştirak etdi. Şəhidin yaşadığı evdən Şəhidlər xiyabanına kimi düzülən insanlar onu şərəf bildiyi son mənzilə yola salırdı. Dinindən, millətindən asılı olmayaraq böyük insan axını bu qeyrətli vətən oğlu ilə vidalaşmağa gəlmişdi.

Zabil deyir: "Qardaşım anamın ölümündən sonra söz vermişdi ki, son damla qanına qədər ermənilərlə döyüşəcək. Onun üçün vətən sevgisi hər şeydən üstün idi. Bir dəfə maşınla qəzaya düşən Raquf ölümün pəncəsindən güclə xilas ola bilmişdi. Bunu ona deyəndə, gülmüşdü. Sonra bildirmişdi ki, mən belə ucuz ölümə can verməzəm. Bircə şəhid olmağı özümə layiq bilərəm. O, layiq olduğunu qazandı.

**Bu gün Raqufun evində bir bayraq qorunur. Həmin bayraq Raqufun cəsədinə bürünüb. Bu, Orucovlar ailəsinin and yeridir. Çəkinmədən canını Vətən yolunda şəhid edən bir azərbaycanlının, şəhidliyi alın yazısı kimi qəbul edən polkovnik Raquf Orucovun intiqamı isə tezliklə alınacaq. Bu gün bütün xalqımız bir nəfər kimi bu əmri gözləyir. Bu, bizim təkcə mənəvi haqqımız deyil, dünyasını dəyişən insanların ruhu qarşısındakı niyyət borcumuzdur. Əməl isə öz yerini tapanda hamımız sakitləşəcəyik, hətta ölülərin ruhu da...**

**Akif ƏLİYEV,**
**"Azərbaycan"**
**13.05.2016**